**Bakı şəhəri** **№ 1/36** **18 oktyabr 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının layihəsinin hazırlanması barədə**

Auditorlar Palatasının qanunvericiliklə müəyyən olunmuş vəzifə və funksiyalarının uğurla həyata keçirilməsi, ölkədə reallaşdırılan iqtisadi islahatların müstəqil audit qarşısında qoyduğu yeni tələblərin icrasının təmin edilməsi, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizədə auditin rolunun və əhəmiyyətinin daha da artırılması, müstəqil audit sahəsində qabaqcıl xarici təcrübənin ölkəmizdə tətbiqinə nail olunması, iqtisadi islahatların indiki mərhələsində audit sisteminin yenidən qurulması və onun təsirliyinin artırılması kimi mühüm istiqamətləri özündə əks etdirən Auditorlar Palatasının 2017-ci il üzrə iş planının layihəsinin hazırlanması məqsədilə

**QƏRARA ALIRAM:**

1. Palatanın struktur bölmələrinin rəhbərlərinə (Q.Bayramov, M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, Y.Namazəliyev, R.Cəfərli) və Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, 2017-ci il üzrə iş planına dair öz təklif və mülahizələrini 2016-cı il 01 noyabr tarixinədək təqdim etsinlər.
2. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova, Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Sədrin müşaviri F.Qarayevə və Aparatın koordinatoru Z.Şəhriyarlı-Rzayevaya tapşırılsın ki, Auditorlar Palatasının Şurası yanında Komitələrin təklif və tövsiyələri də nəzərə alınmaqla Auditorlar Palatasının 2017-ci il üzrə iş planının layihəsini 2016-cı il 10 noyabr tarixinədək hazırlayıb təqdim etsinlər.
3. Bu sərəncamın icrasına nəzarət Auditorlar Palatası sədrinin müavini F.İsmayılova həvalə edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**